# “İlk komandir” filminin təqdimatı olmuşdur

Tərtər şəhər mədəniyyət evində “Yaddaş” studiyasının Azərbaycanın Milli Qəhrəmanı, Tərtər özünümüdafiə batalyonunun ilk komandiri Elman Hüseynova həsr etdiyi “İlk komandir” sənədli filminin təqdimatı olmuşdur.

Tədbirdə rayon icra hakimiyyəti başçısı aparatının, rayon ictimaiyyətinin nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları iştirak etmişlər. “Yaddaş” sənədli filmlər studiyasının direktoru Cavid İmamverdiyev, filmin rejissoru Nizami Abbas “İlk komandir”in ərsəyə gəlməsində əməyi olanlara və Azərbaycanın Milli Qəhrəmanı Elman Hüseynovun döyüş yoldaşlarına minnətdarlıqlarını bildirmişlər.

Tərtər özünümüdafiə batalyonunun o dövrdə qərargah rəisi olmuş Pənah Məmmədov döyüş dostu qəhrəman haqqında ürək sözlərini, Elman Hüseynovun oğlu Emin isə atası ilə bağlı xatirələrini dilə gətirmiş, filmin yaradıcı heyətinə təşəkkür etmişdir.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov tədbirdə çıxış edərək bildirmişdir ki, Azərbaycan Ordusunun təxribatçı erməni birləşmələrinə layiqli cavab verdiyi bir ərəfədə “İlk komandir” filminin nümayişi çox yerinə düşdü.

Aprelin 1-dən 2-nə keçən gecə düşmənin atəşkəsi pozması nəticəsində yaşayış məntəqələrimizdə mülki əhali arasında yaralananlar, şəhid olanlar da oldu. Ancaq heç kəs Qarabağ müharibəsinin əvvəllərində olduğu kimi, rayonu tərk etmədi. Budur Vətənə sevgi, əsl vətənpərvərlik! Xalq orduya güvənir və ondan qələbə xəbəri gözləyir...

Sonra Qarabağ veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıldı, şəhidlərin adının əbədiləşdirilməsindən söhbət açıldı. Qeyd edildi ki, hazırda Milli Qəhrəman Elman Hüseynov adına küçədə abadlıq işləri aparılır. Tərtərin ikinci Milli Qəhrəmanı Vəzir Orucovun adını daşıyan küçənin girişində onun barelyefi qoyulmuşdur.

Tərtərin Çaylı kəndi ərazisində təmas xəttini keçərək böyük qəhrəmanlıq göstərən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun, “Azərbaycan Bayrağı” ordenli Mehrac Mahmudovun, şəhid İlqar Həsənovun adları verilmiş küçələrdə də yenidənqurma işlərinin aparıldığı qeyd olundu.

Çıxışlardan sonra “İlk komandir” filminin nümayişi oldu.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***